# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN EKOLOJİ PROBLEMLƏRİ

**Mətanət Misirxanova**

*AR Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu, Bakı*
*misirxanovam@mail.ru*

Ekoloji problemlər – müxtəlif ekoloji amillər nəticəsində təbiətin strukturunun və funksiyasının dəyişməsi nəticəsində yaranan problemlərdir.

Cəmiyyət inkişaf etdikcə, insan sayı artdıqca atmosferdə oksigen ehtiyatı azalır, karbon qazı çoxalır ki, bu da atmosferdə ozon qatının məhvinə, hava çatışmazlığına, kəskin iqlim dəyişikliklərinə, təbii fəlakətlərin artmasına, insan ömrünün qısalmasına, genetik mutasiyalara və s. gətirib çıxarır. Dünyanı ağuşuna alan, ekoloji tarazlığı pozan, daim inkişaf etməkdə olan texniki vasitələr dünyamızı addım-addım məhvə doğru aparır. Bu gün bütün bəşəriyyət - Yer kürəsi insanların süni şəkildə yaratdıqları məhvolma ilə üz-üzə qalıb. Qlobal istiləşmə, torpaq erroziyası, torpaq, su, hava çirkliyinin artması, biomüxtəlifliyin - canlıların məhvi, iqlim dəyişkənlikləri ekoloji problemlər arasında mühüm yer tutur.

Təəssüf ki, Azərbaycan Respublikası da bu problemlərlə üz-üzə dayanıb. Bu problemlərin baş verməsi tarixi Azərbaycan Respublikası üçün 400-500 ilə baş verəcəyi düşünüldüyü halda erməni vandallarının torpaqlarımızı işğal etdiyi, tarazlığı pozduğu üçün hadisələrin gedişatı sürətlənərək 30 ildə öz mənfi təsirini və nəticələrini göstərmişdir.

Ermənilərin vəhşiliyi nəinki Azərbaycan xalqı üzərində, eləcə də onun təbiəti, tarixi üzərində silinməz yaralar açmışdır.

Əsası 1988-ci ildə Topxana meşəsinə edilən qəsd – meşələrin qırılaraq talan edilməsi ilə başlanan terror 1993-cü illərdə keçmiş Dağlıq Qarabağ və ona yaxın olan 7 rayonun erməni qəsbkarları tərəfindən işğalı ilə pik nöqtəsinə çatdı. 30 il ərzində 20% torpaqlarımızda milli, bəşəri, ekoloji talan hökm sürdü.

30 il ərzində işğal edilmiş rayonlarda 251 min ha meşə ərazisi erməni vandallarının nəzarəti altında qalmış və 10,2 min ha meşə sahəsi təsərrüfat dövriyyəsindən məhv edilərək çıxarılmışdır.

Ərazisinə görə Avropada 1-ci, dünyada isə 2-ci yeri tutan Azərbaycan Respublikası Zəngilan rayonu Bəsitçay hövzəsində yerləşən 117 ha ərazidə təbii çinar meşəsi ermənilər tərəfindən tamamilə məhv və talan edilmişdir. Təkcə Ağdam rayonu ərazisində yaşı 150-250 ilə qədər olan 14 ədəd Şərq çinarı, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı məhv edilmişdir.

Həmçinin işğal edilmiş ərazilərdə uzunömürlü, nəhəng gövdəli palıd ağacları, yaşı 350-400 ilə qədər olan hündürlüyü 12-20 metrə çatan nadir Saqqız ağacları kəsilib Ermənistan ərazisinə aparılmışdır.

Təbii su hövzələrinə edilən qanunsuz və kortəbii müdaxilələr, çay yataqlarının dəyişdirilməsi, orada daş-çınqıl karxanalarının qurulması, çirkli məişət tullantılarının təmizlənmədən çaylara axıdılması nəinki indiki, həmçinin gələcək nəslə vurulan ən böyük zərbədir. Həkəri, Oxçuçay, Xaçınçay, Tərtər çaylarına axıdılan mədən tullantıları çayın yatağı ətrafında biomüxtəlifliyin məhvinə, ekosistemin pozulmasına, biokütlənin məhvinə gətirib çıxarmışdır. 30 il boyu qarşısı kəsilən axar çayların mənsəbinə qədər gəlib çata bilməməsi nəticəsində çay ətrafı ərazilərdə quraqlıq başlamış, təbii meşələrin, otlaqların, kənd təsərrüfatı üçün yararlı torpaqların şoranlaşmasına, münbitliyin kəskin azalmasına səbəb olmuşdur. Ağdam ərazisindən keçən Xaçınçayın qarşısının kəsilməsi ilə Quzanlı ərazisində yerləşən təbii Soltanbud meşəsi və orada bitən nadir Saqqız ağacları demək olar ki, tamamilə tükənmək üzrədir.

Oxçuçay çayına axıdılan mədən tullantılarının təsiri nəticəsində çayın rəngi və qoxusu dəyişmişdir. Aparılan monitorinqlər nəticəsində məlum olmuşdur ki, çayın rənginin və qoxusunun dəyişməsinə səbəb tərkibində ammonium və sulfat ionlarının miqdarının artması olmuşdur. 30 illik işğal dövründə ərazidə olan 167 faydalı qazıntı yatağından 52-si heç bir ekoloji norma gözlənilmədən vəhşicəsinə istismara məruz qalmışdır.

Erməni vəhşilərinin törətdikləri ağlasığmaz qarətlər, talanlar nəticəsində meşələrin davamlı qırılması, boş otlaq sahələrinin, boş qalmış azərbaycanlı mülklərinin talandan sonrakı yandırılması nəticəsində atmosferə buraxılan zəhərli tüstülərin fəsadları dünyanı bürüyən istiləşmə-iqlim dəyişkənlikləri prosesinin daha da sürətlənməsinə səbəb olmuşdur. Eyni zamanda su ehtiyatının və yağıntıların azalması, meşə sahələrinin bitki örtüyünün məhvi, torpaqda rütubətin aşağı düşməsinə, münbitliyin azalmasına, əsən küləklər nəticəsində torpağın üst qatında sovrulma və erroziyaya gətirib çıxarmışdır. Bütün bu saydığımız faktlar

erməni vandallarının törətdikləri ekoloji terrorun cüzi bir gözlə görünə bilən hissəsidir. Gözlə görünməyən hələ əsrlər boyu üzə çıxacaq bioloji, genetik, coğrafi, iqtisadi fəsadları haqqında isə yazmaqla qurtarmaz.

Ermənilərin törətdikləri bu ekoloji vəhşilikləri Dünya xalqları, ictimai birliklər, Ali Radalar da görmüş və müəyyən sənədlərdə öz əksini tapmışdır. Belə ki, Avropa Şurası Parlament Assambleyasının hələ 2016-cı ilin yanvarında qəbul etdiyi 2085 saylı qətnamədə bildirilir ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik rayonlarımızı işğal altında saxlaması nəticəsində Azərbaycanın Aşağı Qarabağda yaşayan vətəndaşları üçün ekoloji və humanitar problemlər yaranıb. Sənəddə bu qınanır. 2006-cı ildə törədilmiş yanğınlar haqqında hesabat da hazırlanmışdır. Ermənistanın həyata keçirdiyi ekoloji cinayətləri "Azercosmos"un peyk şəkilləri də sübut etmişdir.

2024-cü ilin Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən „Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və bu münasibətlə COP29 sammitinin ölkəmizdə keçirilməsi tarixi bir fürsətdir. Və artıq bütün dünya dövlətləri əmindir ki, yaşıl iqtisadiyyata keçid və „yaşıl" enerji təchizatçısına çevrilmək Azərbaycan iqtisadi siyasətini prioritetlərindəndir.

Artıq 30 illik işğala son qoyulmuş, bu torpaqların həqiqi sahibləri geri qayıtmışlar.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın da əsas istiqamətlərindən biri bu ərazilərdə məhz ətraf mühitlə bağlı problemlərin həlli, dinamik iqtisadi inkişaf fonunda ekoloji təhlükəsizliyin təmin olunması, ən müasir yaşıl texnologiyaların tətbiqi və təmiz ekoloji mühitin yaradılmasıdır. Həmçinin strateji sənəddə su ehtiyatlarının və tullantıların idarə olunması, hidrometerorologi sistemlərin təkmilləşdirilməsi, bioloji müxtəlifliyin qorunması, meşə və yaşıllıq ərazilərinin mühafizəsi və genişləndirilməsi, torpaq ehtiyatının bərpası, mineral xammal bazasından səmərəli istifadə, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması, ekoloji təmiz nəqliyyat vasitələrindən və yaşıl texnologiyalardan istifadənin dəstəklənməsi və s. məsələlər əsas prioritetlər kimi öz əksini tapmışdır.

Bütün bunlarla yanaşı, biz insanlar da bir fərd və şəxsiyyət olaraq, illərlə ermənilər tərəfindən ölkəmizə, təbiətimizə, ekologiyamıza vurulan bu zərərlərdən qurtulmaq üçün təbiəti sevməli, qorumalı, tullantı məhsulları ilə onu çirkləndiməməli, yeraltı və yerüstü sərvətlərimizin qədrini bilməli, ondan səmərəli istifadə etməli, şirin su ehtiyatlarımıza həssaslıqla yanaşmalıyıq. Və nəhayət, bütün insanlar bu dünyanı sevməli, onu təmiz saxlamağa çalışmalıdır.